# “Onun şəxsiyyəti örnək idi....”

"Etiraf etmək nə xoşdu ki, burada əyləşənlərin, eləcə də müstəqilliyimizin təməlinə daş qoymuş hər bir azərbaycanlının qüdrətli şəxsiyyət, böyük yazıçı Mirzə İbrahimova bir vəfa borcu var. Mənim özümün də daxil olduğum və sonrakı nəslin ondan öyrəndikləri hesaba gəlməz. Təkcə "Gələcək gün" romanının milli düşüncəmizin formalaşmasında oynadığı rolu etiraf etmək Mirzə müəllimin böyük məfkurə mübarizəsinin sərhədlərini cızmağa bəs edər. Bizim ədəbi nəsil vaxtilə Bakıya bir neçə insanın işığına gələrdi ki, o insanlar arasında "Gələcək gün" romanının müəllifinin yeri ən öndə idi…"

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı sentyabrın 6-da VHP-nin qərargahında xalq yazıçısı Mirzə İbrahimovun 100 illiyi münasibətilə Dünya Azərbaycanlıları Konqresinin AMEA Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsilə birgə reallaşdırdığı yubiley mərasimini bu sözlərlə açdı. Vurğuladı ki, Mirzə İbrahimov heç zaman, heç yerdə söz borclusu olaraq qalmadı, o, son dərəcə ünsiyyətcil, dünyanın gedişatını bilən bir insan kimi yaddaşlarda yaşayır: "Bu mərasimin təşkilatçılarından biri olan Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi də Mirzə müəllimin yadigarıdı. Mirzə müəllim son dərəcə böyük düşüncə sahibi bir insan olaraq milli qəhrəman səviyyəsində o taylı-bu taylı faciələrimizin, milli ağrılarımızın panoramını cəsarətlə əks etdirirdi. Azərbaycan dilinin dövlət dili səviyyəsində qəbul edilməsində Mirzə müəllimin müstəsna xidmətləri olub. O, cəmiyyətin bütün təbəqələri tərəfindən sevilən insan idi. Mənim ədəbi xeyirxahlarımdan biri kimi Mirzə müəllimin nəzərlərini həmişə üzərimdə hiss etmişəm. Vaxtilə məni işə dəvət edəndə dedim ki, mən artıq "Ədəbiyyat qəzeti"ndə işləyirəm. Ürəkdən sevindi. Məsləhət gördü ki, sən doktorluq işini Cənubi Azərbaycan mövzusundan götür. Mirzə müəllim əvvəlcə danışıb, sonra düşünən adamları heç cür qəbul etmirdi. O, təkzibolunmaz bir məntiqin xəmirindən yoğrulmuşdu. Dağlıq Qarabağ hadisələrinin ilk çağlarında İttifaq miqyasında Mirzə müəllim Azərbaycan həqiqətlərini Qorbaçovun düz üzünə söylədi. O, ömrü boyu Azərbaycan ədəbiyyatını bütün dünyada ləyaqətlə təbliğ etdi, həmişə qəribə bir təbəssümlə vurğulayardı ki, biz hələ çox yetişməliyik. Mirzə müəllim bütün dönəmlərdə ömür yoluna çıxan aqressiyalara qarşı qibtə olunan bir inamla dayanmağı bacardı…"

Professor Cəmil Həsənli çıxışında vurğuladı ki, XX əsrdə Azərbaycan ədəbiyyatının ictimai fikirdə böyük əhəmiyyəti olması şəksizdir: "Həmin ədəbiyyatın görkəmli nümayəndəsi Mirzə İbrahimovun yüz illik yubileyinin dövlət səviyyəsində geniş şəkildə qeyd edilməsi təbiidir. Mirzə İbrahimov millətimizin ideya, məfkurə inkişafına böyük təkan vermiş mütəfəkkirdir. O, görkəmli bir yazıçı olmaqla yanaşı həm də böyük siyasi xadim idi. Mirzə müəllimin "Gələcək gün" romanı əslində taleyimizin kitabı olaraq sevilirdi. Xalqımızın milli oyanış yolunda Mirzə müəllimin müstəsna xidməti var. Bu yolda onun parlaq şəxsiyyəti, milli ideologiyaya bağlılığı apaydın görünür. Sovet dönəmində milli ideologiyanın parlaq daşıyıcılarından biri kimi Mirzə müəllimin əvəzsiz rolu heç vaxt unudulmamalıdır. Cənubi Azərbaycanda gedən milli oyanış hərəkatında onun əvəzsiz xidmətləri olub. Milli dilimizin dövlət dili kimi tanınmasında Mirzə İbrahimov qədər çaba göstərən çox az adam tanıyıram. O dönəmdə millətin formalaşmasında böyük vətəndaşlıq duyğusu ilə xidmət edən insanlar arasında Mirzə müəllimin müstəsna yeri var. XX əsr Azərbaycan ədəbiyyatını onsuz təsəvvür etmək olmaz".

Xalq yazıçısı Çingiz Abdullayev çıxışında Mirzə müəllimi böyük insan, qüdrətli yazıçı və şəxsiyyət kimi xarakterizə etdi, xatirələrini dilə gətirdi.

Filologiya elmləri doktoru Rəhim Əliyev vurğuladı ki, Mirzə müəllim elə böyük şəxsiyyət idi ki, onu anmaq ilk növbədə milli-mənəvi dəyərlərə qiymət qoymaqdı:

"Mirzə müəllim həmişə özünü xalqına borclu hesab edirdi, danışmaqdan çox iş görürdü. Onun şəxsiyyəti örnək idi…"

Ədəbiyyatşünas alim Şirindil Alışanlı böyük yazıçının yubileyi qarşısında çalışdığı institutun xüsusi tədbirlər planı hazırladığını, yeni nəşrlər üzərində iş getdiyini önə çəkdi, yazıçının aşıq poeziyasının təbliği sahəsində gördüyü işlərdən söz açdı.

Professor Qəzənfər Paşayev çıxışında ustad yazıçı Mirzə İbrahimovun həm də böyük tədqiqatçı olmasından söz açdı, vurğuladı ki, o, Aşıq Ələsgəri həm də bir filosof-sənətkar kimi təqdim edib, aşıq ədəbiyyatının müstəsna yerini müəyyənləşdirib: "Təsadüfi deyil ki, aşıq obrazı ilk dəfə məhz Mirzə müəllimin romanı əsasında çəkilən "Böyük dayaq" filmində əbədiləşdirilib".

Sonda görkəmli yazıçının qızı Solmaz İbrahimova atasının xatirəsini yaşadanlara dərin minnətdarlığını bildirdi: "Ailəmizdə də belədi, elə gün olmur ki, onu unudulmaz duyğularla xatırlamayaq…"

**Sərvaz**